Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## II CİLD

Azərbaycan Milli Kitabxanası

BAKI – 2017

«Nərgiz», Müslüm bəy Maqomayev), Eldar («Vətən», Qara Qarayev və Cövdət Hacıyev), Aşıq Səlim, Dərviş və Aşıq Vəli («Aşıq Qərib», Zülfüqar bəy Hacıbəyli), Birinci gözətçi («Nizami», Əfrasiyab Bədəlbəyli), Şeyx Əhməd və Müəzzin («Ölülər», Vasif Adıgözəlov), Şeyx Alı («Vaqif», Ramiz Mustafayev), Kəndli («Azad», Cahangir Cahangirov).



**QƏMBƏR ZÜLALOV**
*(1895, Şuşa – 1976, Bakı). Xanəndə-aktyor.*

Bir sıra xarakterik opera rolları oynayıb. Qəmbər Əbdül oğlu Zülalov şöhrətli xanəndə Əbdülbağı Zülalovun qardaşı oğludur. Bir neçə il Türkmənistanın Aşqabad şəhərində əmisinin yanında yaşayıb. Şirin və məlahətli, yumşaq və orta tembrli səsi olub. Xanəndəliyə 17 yaşında Şuşada başlayıb. Bir müddət Şuşada xanəndəlik və müğənnilik etdikdən, müəyyən həvəskar tamaşalarında opera və operetta rolları oynadıqdan sonra 1919-cu ildə Bakıya gəlib. 1927 – 1975-ci illərdə qısa fasilələrlə Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləyib. 80 yaşında fəxri təqaüdə çıxıb. 26 aprel 1958-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

*İfa etdiyi əsas rollar:* Əyan və Nadir, Zeyd, İbn Səlam, Şeyx və Məcnunun atası, Şeyx, Osmanlı paşası və Sofi, Keçəçi və Məhbus («Koroğlu», «Leyli və Məcnun», «Əsli və Kərəm» və «Şah Abbas və Xurşid banu», Üzeyir bəy Hacıbəyli), Rəmmal, Əbu Həmzə, Çapqınçı, Türkmən və Səyyad, Bədəl («Şah İsmayıl» və